**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ELİS MANRO NƏSRİNDƏ PSİXOLOGİZM

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (Kanada ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **İlahə Qədir qızı Tağızadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Aynur Zakir qızı Sabitova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya üzrə fəlsəfə doktoru
**Fəxriyyə Cavanşir qızı Rəhimova**

filologiya üzrə fəlsəfə doktoru
**Arif Alim oğlu Əsədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkəmizin dünyaya, Avropaya inteqrasiyası, yeni liberal dəyərlərin və mədəniyyətin Azərbaycana yol tapması, Qərb ölkələri ilə sıx əlaqələr, o cümlədən bu ölkələrin fikir adamları ilə yaxınlığına gətirib çıxarmış, mədəniyyətlərin dialoquna şərait yaratmışdır. Qərb dünyagörüşünü, mədəniyyətini, fəlsəfəsini və ədəbiyyatını öyrənmək bu baxımdan aktuallıq kəsb etmişdir. "Kanadanın Çexovu" sayılan Elis Manro (Alice Munro, 1931-) ədəbi irsini Azərbaycan ədəbiyyatşünaslığında araşdırılması Kanada ədəbiyyatında layiq olduğu mərtəbəyə yüksəlmiş yazıçının yaradıcılığında baş verən yeniliklərin ədəbiyyatın inkişaf meyillərinin və perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir. Tədqiqatçı Reynqard Nisçik[1] "Kanada hekayəsi" ("The Canadian short story") toplusunda çap etdiyi məqaləsində də qeyd etdiyi kimi ingilisdilli Kanada ədəbiyyatında hekayə janrı Elis Manroya dünya şöhrəti gətirmişdir. İnsan varlığının mahiyyətini və dərin psixoloji portretini yaratmaq bacarığı E.Manroya daha geniş janr formalarına müraciət etmək imkanı verməsinə baxmayaraq, yazıçı kimi fəaliyyət göstərdiyi bütün yaradıcılığı boyu E.Manro hekayə çərçivəsindən kənara çıxmamış, janrın bütün imkanlarından istifadə etmişdir.

Elis Manro Nobel mükafatı ilə təltif olunan on üçüncü, Kanadanın isə ilk qadın yazıçısıdır. Kanadada doğulmasına baxmayaraq, amerikan yazıçısı kimi tanınan yəhudi əsilli Sol Belloudan (1976-cı ildə Nobel mükafatına layiq görülmüşdür) sonra ölkəsinə Nobel mükafatı gətirən ikinci yazıçıdır. Bundan əlavə Kanadanın fəxri adına layiq olduğunu 2013-cü il Nobel mükafatı ilə təltif olunmamışdan öncə 2005-ci və 2010-cu illərdə Taym jurnalının keçirtdiyi "Dünyanın 100 məşhuru"nun siyahısına daxil olmaqla, beş dəfə Kanadanın General-Qubernator mükafatını *"Dance of the Happy Shades"* ("Şən kölgələrin rəqsi" – 1968), *"Who do you think you are?"* ("Sən özün kimsən axı?" – 1978), *"The moons of Jupiter"* ("Yupiterin peykləri" – 1982), *"The progress of love"* ("Sevginin

[1] Nischik, Reingard M. The Canadian Short Story: Interpretations / Nischik, Reingard M. – Camden House, – 2007. – 426 p.

yolu" – 1986), *"Open secrets"* ("Aşkar sirlər" – 1994), iki dəfə Giller mükafatını *"The love of a good woman"* ("Yaxşı qadının sevgisi" – 1998), "Runaway" ("Qaçaq" – 2004), əldə etdiyi nailiyyətlərə görə 2009-cu ildə Beynəlxalq Buker mükafatını, 2004-cü ildə Rocers Yazıçılar İttifaqı mükafatını və kiçik hekayə janrındakı davamlı uğurlarına görə Amerikanın O.Henri mükafatını qazanmaqla sübut etmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında ən son ədəbi nailiyyətləri və ədəbi fikir tarixini yeni bucaqdan öyrənmək, dürüst və dolğun informasiya toplayıb tədqiq etmək geniş vüsət almışdır. Bu baxımdan psixoloji hekayələr ustası Elis Manro yaradıcılığını öyrənmək əhəmiyyət kəsb edir. Onun hekayələrindəki insanın mənəvi-ruhi aləminin təsvirinə xüsusi diqqəti, bədii obrazlarının dövrün sosial-psixoloji fonunda təqdimi müəllifin bir qadın yazarı kimi həyata baxışlarıyla ifadə olunur.

Elis Manro hekayələrində psixologizmin təsvirinin əhəmiyyəti ondan ibarətdir ki, yazıçı müasir insanın ağrı-acılarını, çəkdiyi iztirabları, onun iç dünyasını təsvir edəndə real faktlara əsaslanır, insan və dünya, insan və cəmiyyət, insanlararası münasibətləri qələmə alanda onları təbii və "başadüşülən" edir.

Elis Manronun yazıçı kimi bənzərsizliyi həmçinin onunla bağlıdır ki, o, insanın mənəvi-ruhi aləminə xüsusi diqqət yetirir, onun hiss və davranışlarının gizli motivlərinə "baş vurur", daxili monoloqdan istifadə edərək insan şəxsiyyətində gizlənən və gözlə görünməyən istəklərini açır, onun cəmiyyətlə münasibətlərindəki ziddiyyətləri təsvir edə bilir. Digər tərəfdən, Elis Manro hekayələrində ictimai münasibətlərin mahiyyətini açır, bu münasibətlərin personajların davranışlarına və psixoloji durumuna təsirini göstərir. Şəxsiyyətin psixologiyası və fərdi həyatı, cəmiyyətlə konflikti onun hekayələrinin ideya-məzmunu, bədii xüsusiyyətlərini təşkil edir.

Onu da qeyd etməliyik ki, Elis Manro bədii aləmi ilə təmas insanı mənən zənginləşdirir, onun ədəbi qəhrəmanları ilə "əbədi suallar"ı birgə düşünməyə, insanın özünün dünyada xüsusən də ailədə və cəmiyyətdə yerini və mahiyyətini anlamağa vadar edir. Bu baxımdan Kanadalı yazıçının kiçik nəsrini öyrənmək maraq və əhəmiyyət kəsb edir.

Elis Manronun həyatı və ədəbi irsi Qərb ədəbiyyatşünasları tərəfindən müxtəlif aspektlərdən tədqiq edilmişdir. Qərb ədəbiyyatşünaslığında B.Rasporiç, B.Huper, R.Tekker, K.Somervil, E.D.Blodget, I.P.Karrinqton, F.Seleste, Neil K.Besner, K.A.Hauelz, M.Redekop, P.Roqalus[2] kimi tədqiqatçılar Elis Manro ədəbi irsini araşdırmışlar.

Qərb ədəbiyyatşünaslığında bədii psixologizm yazıçının istifadə etdiyi üslubi priyom kimi qismən də olsa S.L.Cudson, Z.Freyd, B.Matyu, R.Samner, S.Ç.Tompson, C.L.Viktor, D.Vallinz, U.Harmon, R.Mörfin, Q.Bliker, T.Harper, R.Kordel, F.R.Giordano kimi tədqiqatçıların araşdırmalarında tədqiq edilmişdir.

Bədii psixologizmin elmi-nəzəri müddəaları, onun elmi nəzəriyyəsi əsasən rus ədəbiyyatşünasları tərəfindən dərindən tədqiq edilmişdir. A.B.Yesin [3], L.Y.Qinzburq, B.B.Kompaneyets,

---

[2] Blodgett, E.D. Alice Munro / E.D.Blodgett. – Boston: Twayne Publishers, – 1988. – 179 p.; Carrington, Ildiko de Papp. Controlling the Uncontrollable: The Fiction of Alice Munro / Carrington, Ildiko de Papp. – Dekalb: Northern Illinois UP, – 1989. – 244 p.; Celeste, Fernandes. The fiction of Alice Munro: A Study / Thesis for Doctor of Philosophy / Goa University, – 2004. – 410 p.; Christine, Somerville J. Stories and Storytelling in Alice Munro's fiction. M.A. Thesis, University of British Columbia, – 1985. – 180 p.; Hooper, Brad. The Fiction of Alice Munro: An Appreciation / Hooper, Brad. – Greenwood: – 2008. – 169 p.; Howells, Coral Ann. Alice Munro / Howells, Coral Ann. – New York: Manchester University Press, – 1988. – 179 p.; Neil. K.Besner. Introducing Alice Munro's lives and Girls and Women: A Reader's Guide / Neil. K.Besner. ECW Press, – 1990. – 124 p.; Rasporich, Beverly. Dance of the sexes. Art and gendering the fiction of Alice Munro / Beverly Rasporich. – Edmonton: University of Alberta Press, – 1980. – 223 p.; Redekop, Magdalene. Mothers and other Clowns: the stories of Alice Munro / Redekop, Magdalene. – New York: Routledge, – 1992. – 252 p.; Rogalus, Paul William. Alice Munro and the craft of short fiction / Ph.D Thesis, Purdue University of Indiana. – USA: – 1992. – 132 p. Thacker, Robert. Alice Munro: writing her lives / Thacker, Robert. A biography Random House LLC, – 2011. – 616 p.; Redekop, Magdalene. Mothers and other Clowns: the stories of Alice Munro / Redekop, Magdalene. – New York: Routledge, – 1992. – 252p.; Rogalus, Paul William. Alice Munro and the craft of short fiction / Ph.D Thesis/ – USA: Purdue University of Indiana, 1992. – 132 p.

[3] Есин, А.Б. Принципы и приемы анализа литературного произведения: Учебное пособие, 3-е изд / – Москва: Флинта, Наука, – 2000. – 248 с.; Есин, А.Б. Психологизм русской классической литературы: книга для учителя / – Москва: Просвещение, – 1988. – 176 с.; Есин, А.Б. Психологизм. Введение в

O.B.Zolotuxina, İ.B.Straxov kimi tədqiqatçılar bədii psixologizmin elmi-nəzəri müddəalarını işləmiş və onun nəzəriyyəsini hazırlamışlar.

Bədii psixologizm Azərbaycan ədəbiyyatında da geniş tədqiqata cəlb olunmuşdur. M.İmanov [4], C.Nağıyev, F.Abdurrahmanova, T.Məmmədova kimi tədqiqatçıları nümunə gətirmək olar. Lakin bu problemin ayrıca Elis Monro yaradıcılığında öyrənilməsinin ilk dəfə təqdim edilməsini vurğulayaraq onu da qeyd etməliyik ki, dünya şöhrətli yazıçının yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında tədqiqata cəlb edilməmişdir. Bu nöqteyi-nəzərdən Kanadanın görkəmli nəsr ustası Elis Manro ədəbi irsinin tədqiqi həm əhəmiyyəti, həm də aktuallığı baxımdan danılmazdır.

**Tədqiqatın obyekti və predmeti.** Elis Manro hekayələrində bədii psixologizmi araşdırmaq tədqiqatın obyektini, bədii psixologizmin öyrənilmə istiqaməti, elmi-estetik qaynaqları, bədii psixologizm haqqında mülahizələr, psixologizmin təzahür formaları və üslubi priyomları tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Təqdim olunan dissertasiya işinin əsas məqsədi Elis Manro hekayələrində bədii psixologizmi araşdırmaq və təhlil etməkdir. Buna müvafiq olaraq aşağıdakı vəzifələr irəli sürülmüşdür.

– Bədii psixologizmin keçdiyi inkişaf yolunu təhlil etmək;

– Bədii psixologizmi elmi-nəzəri problem kimi tədqiq etmək;

---

литературоведение. Основные понятия и термины / – Москва: Высшая школа, –1999. – 556 с.; Гинзбург, Л.Я. О психологической проза/ – Москва: INTRADA, – 1999. – 415 с.; Компанеец, В.В. Художественный психологизм в советской литературе (1920-е годы) / – Ленинград: Наука, Ленингр. отд-ние, – 1980. – 113 с.; Золотухина, О.Б. Психологизм в литературе / О.Б.Золотухина. – Гродно: ГрГУ, – 2009. – 179 с.; Страхов, И.Б. Психологический анализ в литературном творчестве [В 2 ч.] / И.Б.Страхов. – Ч.1, – Саратов: – 1973. – 118 с.

[4] İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm (1960-1970-ci illər) / M.İmanov. – Bakı: “Elm”, – 1991. – 144 s.; Nağıyev, C. “Kitabi Dədə Qorqud”da psixologizm. // Azərb.SSR Ali və orta ixtisas Təhsil Nazirliyi. Elmi əsərlər. Dil və Ədəbiyyat. – Bakı: – 1976. – s.53-59.; Abdurahmanova, F. Müasir Azərbaycan poeziyasında psixologizm / Filologiya üzrə fəlsəfə doktoru disser./ – Bakı, 2012. – 128 s.; Məmmədova, T. İlyas Əfəndiyevin nəsrində psixologizm / Filologiya üzrə fəlsəfə doktoru disser./ – Bakı, 2009. – 144 s.

– Elis Manro hekayələrində ideya-bədii xüsusiyyətləri üzə çıxartmaq;

– Elis Manro hekayələrində bədii psixologizmin üslubi priyomlarını araşdırmaq;

– Elis Manronun kiçik nəsrində sosial-fəlsəfi və mənəvi-psixoloji prinsipləri Afaq Məsudun hekayələri ilə paralellər apararaq müəyyən etmək və təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi-müqayisəli, analitik, psixoanalitik metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Bədii psixologizmin inkişaf dinamikası ədəbiyyatın bütün mərhələlərini özündə ehtiva edir. Bədii psixologizm Ellinizm mərhələsindən geniş vüsət alaraq ədəbiyyatın digər mərhələlərində öz təzahür formasını dəyişərək yenidən meydana çıxır;

– Bədii psixologizmin elmi-nəzəri əsasları ədəbiyyatşünaslığın inkişaf mərhələsində aydın olur, aşkar və gizli psixologizmə bölünərək yaradıcı sənətkarların əsərlərində ifadə forması kimi müəyyənləşir;

– Bədii psixologizmin üslubi priyomları daxili monoloq, şüur axını, portret, interyer, peyzaj formasında qəlibləşmədə ideya-məzmunun təyinləşdirici xüsusiyyətlərindən olmuşdur;

– Elis Manro hekayələrində psixoloji təsvir yolu ilə psixologizmi meydana gətirə bilmə potensialını təsbit edir;

– Elis Monro kiçik nəsrində aşkar və gizli psixologizmi tam əyaniliklə ortaya qoymaqla yeni narrativ modeli təqdim edir;

– Elis Monro yaradıcılığında feminizm, qadın və cəmiyyət problemi kontekstində psixologizmin təhkiyə formasını meydana gətirmişdir;

– Elis Monro hekayələrində mənəvi-psixoloji və sosial problem-ləri ortaya qoymaqla milli ədəbiyyat çərçivəsində psixologizmi təsbit etməyə imkan verir;

– Azərbaycan ədəbiyyatının görkəmli yazıçısı Afaq Məsudun hekayələri Elis Manronun hekayələri ilə bədii psixologizmin üslubi priyomlardan istifadə müstəvisində oxşar mövqe tutur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işi Elis Manro nəsrində psixologizmlərin araşdırılmasına həsr olunmuş ilk irihəcmli araşdırmadır. Dünya ədəbiyyatı estetik fikrində Elis Manro kiçik nəsri

müəyyən dərəcədə təhlil olunsa da, Azərbaycan ədəbiyyatşünaslığında tədqiqata cəlb olunmamışdır. Elis Manro kiçik nəsrində psixologizmin tədqiqi mövzusu isə ümumiyyətlə ədəbiyyatşünaslıqda öyrənilməmiş sahədir və bu onun elmi yeniliyini şərtləndirən amillərdəndir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən dünya və ingilisdilli Kanada ədəbiyyatının tədrisi prosesində universitetlərin filologiya fakültələrində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işində irəli sürülən fikir və mülahizələr elmi konfranslarda, seminarlarda, həmçinin ölkəmizdə və xaricdə dərc olunmuş məqalələrdə öz əksinin tapmışdır. Dissertasiya işinə dair müxtəlif məcmuələrdə 7 məqalə və 3 tezis çap edilmişdir. Bir məqalə və bir tezis xarici ölkədə nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 5 səhifə, 8645 işarə, I fəsil 52 səhifə, 104105 işarə, II fəsil 45 səhifə, 89113 işarə, III fəsil 33 səhifə, 64907 işarə, Nəticə hissəsi 3 səhifə, 5644 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 272414 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun işlənmə səviyyəsi, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiya işinin **"Bədii psixologizmin elmi-nəzəri əsasları və onun Elis Manro yaradıcılığında təcəssümü"** adlanan **I fəsil** iki yarımfəsildən ibarətdir. ***"Bədii ədəbiyyatda psixologizmin genezisi və onun nəzəri əsasları"*** adlanan *birinci yarımfəsildə* bədii

psixologizmin keçdiyi inkişaf yolu təhlil edilir. Ədəbiyyatşünaslıqda bədii psixologizmin inkişafı bədii formaların əsrlər boyu dəyişərək təkmilləşməsi ilə şərtləşir.

Bədii psixologizmin elmi-nəzəri müddəalarını işləyib hazırlamış rus tədqiqatçısı A.B.Yesinin fikrincə, yeni dövr antik ədəbiyyatı psixologizmin inkişafının ilk mərhələsidir. Bədii psixologizmin ilk ünsürlərini 5 kanon yunan romanlarından hesab olunan Heliodorun "Efiopika" (təq. III və ya IV əsr) və Lonqun "Dafnis və Xloya" (II əsr) adlı əsərlərində tapmaq olar. Bu əsərlərdə qəhrəmanların daxili-mənəvi yaşantıları, gizli fikir və düşüncələri qələmə alınmışdır. XX əsrin bir sıra tərəqqipərvər rus ədəbiyyatşünaslarının elmi tədqiqatları bədii psixologizmin ilk inkişaf mərhələsinin ellinizm və erkən xristianlıq ədəbiyyatına təsadüf etdiyini bəyan edirlər (M.Baxtin, Qolenişev-Kutuzov, S.Averinçev). Ellinizm dövrü daxili "Mən"in kəşfi ilə xarakterizə olunur. Öz-özü ilə dialoq, özünümüşahidə, özünüanaliz ellinizm dövrünün filosofluq forma və üsulları idi. Bu dövrdə memuar-bioqrafik, epistolyar nəsr kimi bədii janrlar (Mark Averliy, Seneka) geniş yayılır. Refleksiya yəni özünütəhlilin kəşfi ellinizm mədəniyyətinin ən üstün nailiyyətidir və Stoiklərin fəlsəfəsində geniş vüsət alan gecə hesabatı özünüanalizin – psixoanalizin ilkin nümunələri hesab etmək olar (Porfiriy "Pifaqqorun həyatı", M.Averliy "Özü ilə təklikdə"). Psixoloji refleksiyanın inkişafına təkan verən xristianlıq etiraf-tövbə janrını formalaşdırır.

XII-XIV əsrlərdə inkişaf edən kurtuaz ədəbiyyatı üçün "abstarkt psixologizm" anlayışı xarakteridir. Orta əsrlərin sevgi romanları etiraf xarakterli təhkiyədən müəllif təhkiyəsinə keçid saymaq olar. Qəhrəmanların daxili aləmi təhlil obyektinə çevrilir və yazıçıya daxili təzad və hisslərin dərin qatlarına vararaq psixoloji analizə cəlb etmək imkanı verilir. Bütün bunlar obyektiv psixoloji analizin (yəni müəllif analizinin) ilk elementlərinin kurtuaz romanla yarandığını iddia etməyə əsas verir.

XIV əsr İntibah mərhələsində bədii psixologizmin üslubi priyomları monotəhkiyə, etiraf, monoloq, dialoqla əvəzləndi. Monotəhkiyə üsulu ilə yazılan əsərlərin ən bariz nümunəsi Qərbi Avropa ədəbiyyatşünaslığında ilk psixoloji roman hesab olunan

“Madonna Fyamettaya elegiya”da (1343-1344) C. Bokkaçço sevgilisi tərəfindən tərk olunmuş qadının hiss-həyəcanının, mənəvi-psixi halının ustacasına analizini verilmişdir. İntibah dramı bədii psixologizmin inkişafında xüsusi rol oynadı. Dram janrının inkişafı birbaşa intibah qəhrəmanının əməldə, sözdə və jestlərində daxili ehtiras və təzadlarını tərənnüm etmə ehtiyacından doğdu. Qəhrəmanın daxili ziddiyyətlərinin mürəkkəbliyinə, mənəvi-ruhi dinamikasına diqqət artdı.

Orta əsrlərdə insan Allahın qəzəbindən qorxur, din xadimlərinin doqmalarına İntibah dövründə qorxu buxovlarında azad olaraq özünə, klassisizm mərhələsində isə onu cilovlayan cəmiyyətə tabedir. Klassizim mərhələsində bədii psixologizm abstrakt psixologizmdən insanın ehtiras və mənəvi borc, ağıl və hiss kimi təzadlı duyğularla çarpışmasının təsvirinə yönəlmişdir. Bu mərhələ epistolyar roman janrının inkişafı ilə obyektiv psixologizmin əsasını qoydu. İlk fransız epistolyar romanın müəllifi Q.C.Quileraqus “Portuqalialı rahibənin məktubları” və Madam de Lafatetin “Klev Şahzadəsi” əsərlərində kökü intibah nəsrinə və borokko sentimental romanına qədər çatan psixoloji analizin obyektiv forması özünü biruzə verir. Müəllifin müdaxiləsi olmadan baş qəhrəmanın hiss və düşüncələri birbaşa, vasitəsiz təqdim olunur.

Avropada XVIII əsrin ortalarından, Şərqdə isə XX əsrin əvvəllərini əhatə edən bir dövrdə bədii psixologizmin transformativ inkişafını izləmək mümkündür. Bu mərhələdə aparıcı bədii forma nəsrdir. Bu dövrdə psixologizmin inkişafı birbaşa XIX əsrdə yaranan psixoloji roman ilə bağlıdır. Psixoloji romanın yaranmasında sentimentalizm və romantizmin danılmaz rolu vardır. Sentimentalizm daxili-mənəvi aləmin lirik özünüifadəsini təmin edən “sentimental refleks”i təqdim etdi. S.Riçardsonun “Pamela yaxud qiymətləndirilmiş ləyaqət”, J.J.Russonun “Yuliya, yaxud yeni Eloiza”, H.E.Lessinqin “Miss Sara Sampson”, “Emilya Qalloti”, Götenin “Faust”, F.Şillerin “Qaçaqlar”, “Məkr və məhəbbət” əsərlərində “sentimental refleks” daha qabarıq verilir və psixoanalitik metodun tədqiqat obyektinə çevrilir[5].

[5] Paul, Bishop. Analytical Psychology and German Classical Aesthetics: Goethe, Schiller, and Jung. / – London and New York: Routledge, – 2008. – 233p.

Romantizmin psixoloji romanın inkişafı üçün verdiyi töhfələrdən biri subyektiv psixoloji analizi formalaşdırması oldu. Novalis, H. Kleyst, S.T.Kolric, C.G.Bayron, F.R.Şotabrion, J de Stal, B.Konstan kimi romantiklərin əsərləri insanın daxili "xeyir" və "şər"inin mübarizəsinin təcəssümünü açmağa xidmət edir.

Realizm psixoloji romanın ərsəyə gəlməsi ilə xarakterizə olunur və əsas diqqət insanın psixoloji və mənəvi aləminin aktual problemlərinə yönəlir. Fərdiliyin məhvi, qəhrəmanların özünüanalizi, psixoloji dramı, "Mən"in deqredasiyası Gi.de.Mopassan, C.Meredit, T.Hardi, H.Ceyms, T.Drayzer kimi yazarların əsərlərində qabardılır.

XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşan modernizm bədii psixologizmin ifadəsində inqilabi bir metodun – şüur axını texnikasının əsərlərə şamil olunması ilə xarakterikdir. V.Vulf, C.Coys, M.Prust, F.Kafka, A.Kamyu, J.P.Sartr, U.Folkner kimi modernist yazarlar öz əsərlərində iki cahan müharibəsi yaşamış insanın mənəvi-psixi çöküntüsünü pərakəndə, dağınıq nitqi özündə ehtiva edən "şüur axını" vasitəsilə istifadə etmələri qəhrəmanlarının özgələşmiş, çarəsiz və ümidsizləşmiş ruhlarının ifadəsi idi.

XX-XXI əsri özündə ehtiva edən postmodernist ədəbiyyatda bədii psixologizm daha çox keçmiş mətnlərə yenidən baş vurmaq prinsipi ilə baş verir və belə nümunələr psixoloji mətnlər, intertekstual dialoq, ironiya, pastiş, kollaj priyomları ilə ərsəyə gəlir.

***"Elis Manro yaradıcılığında psixologizmin bədii-estetik xüsusiyyətləri"*** adlı ikinci yarımfəsildə bədii psixologizmin elmi-nəzəri müddəaları irəli sürülmüşdür. Bədii psixologizmin təzahür formalarının (aşkar və gizli psixologizm) xüsusiyyətləri açıqlanır.

Bədii psixologizm sözünə 2 aspektdən yanaşma mövcuddur. "Geniş" və "dar" mənada başa düşülən psixologizm sözünə diqqət edək. "Geniş" mənada psixologizm dedikdə incəsənət və ədəbiyyatda insan həyatı və xarakterini ifadə edən nümunələr yaratmağına işarədir. "Dar" mənada psixologizm isə konkret əsərlərdə obrazların daxili-mənəvi, psixi-ruhi, yaşantılarını, duyğu və düşüncələrini bu və ya digər vasitələrlə ifadəsidir. Muxtar İmanov "Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər)" adlı monoqrafiyasında psixologizmin təhkiyə üsulunda istifadəsinə belə qiymət verir: *"İstənilən təhkiyə üsulunda təhkiyənin obrazın əhval-ruhiyyəsi,*

*düşüncə tərzi zəminində qurulması psixologizmin güclənməsinə səbəb olur*”[6]

Bədii psixologizm rus ədəbiyyatşünasları tərəfindən geniş tədqiq və təhlilə cəlb edilmiş mövzulardandır. Tədqiqatçı A.Yesinin fikrincə *“psixologizm xüsusi bədii vasitələrin köməyi ilə təxəyyülün məhsulu olan şəxsiyyətin (bədii obrazın) hiss və həyəcanının, düşüncə və davranışının kifayət qədər dərin, dəqiq və hərtərəfli təsviridir*”[7]. L.Y.Qinzburq isə psixologizmi mənəvi həyatın dərin qatı və təzadlarının tədqiqi adlandırır[8].

Alim İ.Straxov bədii psixologizmin iki təzahür formasını irəli sürülmüşdür: “daxili” və “xarici”. Bədii psixologizmin “daxili” əksetdirmə forması obrazların daxili aləmini daxili monoloq və xatirə vasitəsilə ifadə edir. “Xarici” əksetdirmə forması portret, xarici nitq, dialoq, mimika və jestlər vasitəsilə əks olunur[9]. E.Manro öz hekayələrində həm aşkar (daxili) həm də gizli (xarici) adlanan psixologizmə müraciət etmişdir. A.Yesin “daxili” psixoloji əksetdirmənin “birbaşa-vasitəsiz”, “xarici” psixoloji əksetdirməni isə qəhrəmanın daxili hiss həyəcanını, duyğu və düşüncələrini xarici psixoloji simptomlar vasitəsi ilə ifadə etdiyindən “vasitəli” forma adlandırır.

Gizli (xarici) adlanan psixologizmə portret, peyzaj, məkan təsviri aiddir. A.Yesin ədəbiyyatşünaslığa psixoloji və xarakterik (qeyri-psixoloji) portret anlayışını gətirdi. Alimin fikrincə psixoloji portret qəhrəmanın psixi hal və vəziyyətinin daxili hiss və həyəcanlarını, duyğu və düşüncələrini ifadə edir. Xarakterik portret isə qəhrəmanın psixoloji vəziyyətinə varmadan onun şəxsiyyətinin xarakter və xüsusiyyətlərini açır. Bu yanaşma Azərbaycan ədəbiyyatşünaslığında Əflatun Məmmədovun “Azərbaycan bədii nəsri (XIX əsrin sonu XX əsrin əvvəlləri)” monoqrafiyasında da

---

[6] İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm (1960-1970-ci illər) / M.İmanov. – Bakı: “Elm”, – 1991. – s.116

[7] Есин, А.Б. Психологизм русской классической литературы: книга для учителья / А.Б.Есин. – Москва: Просвещение, – 1988. – с.18

[8] Гинзбург, Л.Я. О психологической проза / Л.Я.Гинзбург. – Москва: INTRADA, – 1999. – с.286

[9] Страхов, И.Б. Психологический анализ в литературном творчестве [В 2 ч.] / И.Б.Страхов. – Ч.1, – Саратов: – 1973. – 118 с.

işıqlandırılıb: *"Portret hekayələrində müəllif əsas obrazın həm xarici görünüşünü, həm də onun fikir və düşüncəsini, arzu və əməlini, hərəkət və davranışlarını həmahəng şəkildə qələmə alır"* [10]. Həqiqətən də daxili monoloqun açılmasında müəllif qəhrəmanın fikir və düşüncələrini psixologizmlərdən istifadə edərək canlandıra bilər.

E.Manronun həm psixoloji həm də xarakterik portret vasitəsilə öz qəhrəmanlarının mənəvi-psixoloji halını, fikir və düşüncələrini oxucuya çatdırır. "Zaman" ("Dimensions") hekayəsindən xarakterik portretə nümunəyə nəzər yetirək: *"Bir zamanlar onun saçları uzun, dalğalı və qəhvəyi idi. Onun sevdiyi kimi. İndi isə qar kimi ağappaqdır"* [11]. İllərin ağır yükü, məişət problemləri hekayənin qəhrəmanını sınıxdırmış, yoldaşının öz balalarını qətlə yetirməsi isə onun səbr kasasının son damlası olmuşdu. Qadının illər öncəki portreti həyatın ağrı-acısının ağarmış saçlarına sinməsinə işarədir.

Gizli psixologizmin digər üslubi priyomlarından biri də peyzajın təsviridir. Peyzajın təsviri əsərdəki xarakterlərin daxili-mənəvi aləmindəki yaşantıları ilə səsləşir, onların psixi halı, hiss-həyəcanları, mənəvi təbəddülatları sanki təbiətin təsvirində də öz əksini tapır. Tədqiqatçılar Qerrit Bliker və Barbara Bliker haqlı olaraq təhkiyəçinin xarakteri, əhval-ruhiyyəsi və peyzajın təsviri arasında əlaqənin mövcudluğunu iddia edir. Elis Manronun hekayələrində təbiət hadisələri obrazların mənəvi-psixi yaşantılarını, tərəddüd və təbəddülatlarını hətta hekayənin sonunda baş verəcək hadisələri proqnozlaşdırır. Nümunə olaraq E.Manronun "Ölüm vaxtı" ("The Time of Death") hekayəsinə nəzər salaq: *"Havadan qar qoxusu gəlir. Amma qar yağmırdı ki, yağmırdı"*[12] .Qarın yağmaması hekayənin baş qəhrəmani Patrisiyanın içində boğub saxladığı, kimsəyə deyil özünə ünvanlanan qəzəb, kin, nifrət idisə, hekayənin sonunda qarın yağması Patrisiyanın etirafı içindəki qəzəbin cilovunu açması ilə simvolizə olunur.

---

[10] Məmmədov, Ə. Azərbaycan bədii nəsri (XIX əsrin sonu XX əsrin əvvəlləri) / Ə.Məmmədov. – Bakı: "Elm", – 1988. – s.49

[11] Munro, A. Too much of happiness / Alice Munro. – Toronto: McClelland&Stewart, – 2009. – p.22

[12] Munro, A. Dance of Happy Shades / A.Munro. – London: Vintage Books, – 2000. – p.90

Bədii psixologizmin daxili monoloq, şüur axını, interyer, metafora, litota, hiperbola, oksimoron, paradoks, fləşbək kimi üslubi priyomları, təhkiyənin növü, psixoloji analiz və qəhrəmanın özünüdərki də bu yarımfəsildə araşdırılmış və Elis Manronun hekayələrindən nümunələr əsasında təqdim edilmişdir.

**“Elis Manronun hekayələrində psixologizmin təsviri xüsusiyyətləri”** adlanan **II fəsil** iki yarımfəsildən ibarətdir. ***“Elis Manro hekayələrində insanın daxili aləminin təsviri”*** adlanan *birinci yarımfəsildə* ingilisdilli Kanada ədəbiyyatında kiçik nəsrin keçdiyi inkişaf yolu və bu janrın dinamikasında danılmaz rolu olan yazarların ədəbi irsinə baxış təqdim edilmişdir. Bu bölümdə 2013-cü il Nobel mükafatı laureatçısı, 14 hekayə toplusu müəllifi “Kanadanın Çexovu” adına layiq görülən Elis Manro yaradıcılıq yoluna nəzər salınmışdır.

“Şən kölgələrin rəqsi” hekayələr toplusuna daxil olan “Kəpənək günü”, “Ofis”, “Ölüm vaxtı”, “Oğlanlar və qızlar”, “Qırmızı don-1946”, “Sahilə doğru”, “Utrext sülhü”, “Şən kölgələrin rəqsi” kimi hekayələrdə obrazların psixoloji-mənəvi sarsıntıları, mənəvi təzad və təbəddülatları insan və cəmiyyət qarşıdurması müstəvisində təhlilə cəlb edilmişdir.

Elis Manronun bütün hekayələrinin təhkiyəçisi və ya baş qəhrəmanı qadındır. Odur ki, insan-cəmiyyət dedikdə burada əsasən qadın-cəmiyyət qarşıdurması ilə rastlaşırıq. “Ofis” hekayəsinə nəzər salaq. “Ofis” hekayəsi ingilis modernist yazıçısı V.Vulfun *“hər qadının öz iş otağı olmalıdır”* ideyasından qaynaqlanır. Hekayə baş qəhrəman – yazıçı qadın tərəfindən nəql olunur. XX əsrin 50-ci illərindəki abu-havanı təsvir edən bu hekayə də qadın azadlığı məsələsi, yazıçı kimi məsləyə sahib olması tənə vurulacaq mövzular olduğunu məlum edir.

Hekayənin qəhrəmanı ərinin razılığı ilə münasib bir ofis kirayə götürür. Cənab Malli kirayə verilən otağın sahibkarıdır. Qəhrəmanımız yazı makinasını işə salan kimi Cənab Malli bir bəhanə ilə gah dibçəkdə gül, rahat oturmaq üçün yastıq, gah da kağız qutusu gətirərək içəri daxil olur. Lakin Cənab Mallinin ilk baxışdan məsum lakin inadkar və hiyləgər xidmətləri təhkiyəçini bezdirir və o, qapısını kilidləyir. Cənab Malli öz dövrünün tipik kişi obrazıdır. O, bü cür addımı xüsusən də, qadın tərəfindən olan bu rəddi heç cür həzm edə

bilmir. *"Axı bir qadının əri və uşaqlarının xidmətində durmaqdan vacib nə işi ola bilər?"* kimi düşüncələrin əsirinə düşən güclü cinsin nümayəndələri yazıçılığı nəinki qadın üçün peşə saymır, hətta qadını fikir söyləmək hüququndan da məhrum olmuş zavallı sayırdılar. Ailəsi, geniş evi olan bir qadının başqa məkanda otaq kirayələməsi insanlar tərəfindən bir mənalı qarşılanmırdı. Təhkiyəçi Cənab Mallinin inadkarcasına həmsöhbət olmaq cəhdlərini boşa çıxardır. Hər dəfə ofisinə daxil olanda qapını içəridən kilidləyib, öz yazı makinasında yarımçıq qalmış hekayələrinin davamını yazmaqla məşğul olur. Lakin bir dəfə otağa daxil olanda gözlərinə inanmır. Stolun üstü spirtli içki şüşələri ilə dolu, divarlar dodaq boyası ilə yazılmış vəziyyətdə idi. Cənab Malli qadını pozğun işlərlə məşğul olmaqda ittiham edir və qəhrəmanımız üçün yeganə çıxış yolu öz evinə - toxunulmaz qalasına qayıtmaq olur. Çünki, evdən başqa hər yerdə qadın canavar sürüsü üçün həm mənəvi həm də fiziki qida sayılırdı.

*"Sən özün kimsən axı?"* hekayələr toplusuna daxil olan "Kralsayağı kötək", "İmtiyaz", "Yarım dilim qreypfrut", "Kasıb xadimə", "Ərköyünlük", "Simonun bəxti", "Hecalama", "Sən özün kimsən axı?" adlı kiçik nəsr nümunələrində şüuraltıda yatan xatirələrin insan həyatına, əməllərinə, duyğularına təsirini psixoanalitik müstəvidə təhlilə cəlb edilmişdir. "Ərköyünlük" hekayəsinə nəzər salaq. "Ərköyünlük" hekayəsində Rozanın Patrikdən boşanma səbəb-lərini yaradan şəraitlərin təsviri verilmişdir. Evlilikdən sonra cütlük Vankuverdə məskunlaşdılar və yeni tanışlar və dostlar qazanmaq üçün ziyafətlər verir və dəvət olunan qonaqlıqlarda iştirak etməyə can atırdılar. Belə ziyafətlərdə Patrik alovlu cıxışlar edir, bu zamanlar Roza ondan utanır və onun arvadı olmaqdan xəcalət duyurdu. Roza Annanı dünyaya gətirdiyi doğum xəstəxanasında palata yoldaşı, iki oğul anası Coslin ilə tanış olur. Coslinin əri skripkaçıdır. Coslin yazıçı olmaq arzusunu əri Kliffordun istedadından daha faydasız sayıb bu xülyadan vaz keçir və özünü ərinə və ailəsinə həsr edir. Coslin də Roza da XX əsrin tipik qadın obrazlarıdır. Ərinin kölgəsində öz istedadını, arzularını məhv edən, hər işlərində ərinə dəstəkçi və yardımçı olmağı öz mənəvi borcu sayan qadınlar üçün öz hüquqlarını tələb etməyə, öz xəyallarını gerçəkləşdirmək üçün potensial güclərini sərf etməyə cəsarət edə bilmirdilər. Çünki, ailədaxili anlaşılmazlıqla

yanaşı, ictimai qınaq ilə də çəpərlənəcəklərindən əmindirlər. Rozanın da həyata keçirmədiyi xəyalları var və o öz enerjisini Patriklə evlənməklə hədər sərf etdiyini anlayır. Psixoanalizin banisi Ziqmund Freyd bu enerjini şüuraltında yatan psixi enerji adlandırır. Psixi enerjinin yığılıb artması isə axırda vurub bütün mənəviyyatı darmadağın edə bilən qorxunc bir gücə çevrilməsi ilə nəticələnə bilər. Libido yəni həzz almaq istəyi bu enerjini boşaltmanın – idman, intellektual və yaradıcı əmək və s. kimi növlərini təqdim edir. Alimin fikrincə şüur altından enerjinin müxtəlif formada üzə çıxması, gerçəkləşməsi enerjinin sublimasiyasıdır. Z.Freydə görə fantaziyalar, xəyallar və bir çox yuxular sublimasiyanın törəmələridir və sivilizasiya bu sublimə olunmuş enerjiyə borcludur[13]. Rozanın arzusu hamının qəlbini fəth etmək, ictimai məzmun daşıyan bir peşə ilə məşğul olmaq, özünü cəmiyyətdə təsdiqləmək idi. Evlilik şəxsiyyət kimi öz iradəsini formalaşdıra bilməyən Rozanın arzularını xəyal olaraq qalmağa məhkum etmişdi. Nitqindəki ləhcə qüsurlarından tutmuş geyindiyi paltarlara qədər müdaxilə edən Patrikin əlində Roza sanki oyuncağa çevrilmişdi və Patrik onu öz istədiyi kimi görmək istəyirdi.

Roza həyata keçməyən arzularını, sərf olunmayan psixi enerjisini yaradıcılığa deyil, onu bu dustaq həyata məhkum edən Patrikə xəyanət etməyə yönəltdi. Patrikin sənət adamlarına yuxarıdan aşağı baxması, öz ərini təqlid etmək məcburiyyəti onu öz gənclik arzularından uzaq salmışdı.

Roza öz rəfiqəsi Coslinin əri – skripkaçı Kliffordla xəyanət etməklə sanki arzularına çəpər çəkən Patrikdən intiqamını alırdı. Patrikə soyuqqanlıcasına öz xəyanətini etiraf etməsi ilə 6 illik mənəvi-psixi sıxıntısını bu halın səbəbkarlarına geri ötürürdü.

"Ərköyünlük" hekayəsi Roaznın taleyinin fonunda Patrikin də mənəvi faciəsinə işıq salır. Patrikin Roza ilə tanış olduğu illərdə gələcək barədə böyük arzuları vardı. O tarix elmi üzrə professor olmağı planlaşdırır və heç bir halda atası kimi bir sıra mağazalar şəbəkəsinin sahibkarı olmağı niyyət etmirdi. Lakin iradəsizlik Patrikə öz arzularının üstündən birdəfəlik xətt çəkməyə vadar etdi. Ailə yükü, Rozanın şıltaq istəkləri, sadəcə müəllimlik peşəsi ilə əldə olan

---

[13] Quliyev, Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları / – Bakı: – 2012. – 344 s.

gəlirlə davam edə bilməyəcəyi həqiqəti ilə Patriki üzbəüz qoydu və o, öz arzularına vida etməli oldu. Bəlkə də tam realizə olunmayan arzuların təpkisi idi ki, Patrik Rozanı öz qaranlıq – çox adama xüsusən də talantlı incəsənət adamlarına nifrət dolu dünyasına həbs etmişdi. Bu dustaqxanadan isə mənəvi-psixi gücə malik insan qurtula bilərdi. Coslindən fərqli olaraq, Roza həyatında köklü dəyişikliklər etməyə, sosial-ictimai qınağa göz yummağa cəsarət edə bildi. Uşaqlığında ögey anası Flonun, atasının, gənclik illərində isə Patrikin diktəsindən, təsirindən, müdaxiləsindən qurtulan Roza bütün enerjisini öz arzularını realizə etməyə yönəldir.

***“Elis Manro kiçik nəsrində aşkar və gizli psixologizm”*** adlı *ikinci yarımfəsil*də “Yupiterin peykləri”[14] və ““Nifrət, dostluq, qayğı, eşq, nigah”[15]adlı hekayələr toplusuna daxili olan hekayələr ideya-məzmun cəhətdən təhlil edilərək, aşkar və gizli psixologizmin kontekstində tədqiq edilmişdir.

Aşkar psixologizmlər qəhrəmanı psixoloji özünütəhlili vasitəsilə daxildən ifadə edir. Aşkar psixologizmin ifadə vasitələrinə psixoloji özünüanaliz, daxili monoloq, dialoq, məktub, etiraf, gündəlik, yuxu, birbaşa nitq, şüur axını, qəlbin dialektikasını aid etmək olar.

Gizli psixologizmlər isə qəhrəmanın daxili-mənəvi yaşantılarını xaricdən təsvirin ifadəsidir. Bədii təfərrüata daxil olan portret, peyzaj, məkan təsviri və şərh hətta sükutun təsviri gizli psixologizmin ifadə vasitələrindəndir.

Elis Manro gah aşkar gah da gizli psixologizmlərin köməyi ilə qəhrəmanın daxili-mənəvi aləminin təsvir gücünü artırır.

Elis Manro “Yupiterin peykləri” toplusuna daxil olan “Çaddeleylər və Fleminqlər 1: Qohum”, “Çaddeleylər və Fleminqlər 2: Həyətdəki daş”, “Yosun”, “Qəza”, “Bardon avtobusu”,“Yupiterin peykləri” kimi kiçik nəsr nümunələrində qadın-cəmiyyət, qadın-kişi, qadın-övlad münasibətlərindəki nöqsanları gizli və aşkar psixologizmin vasitəsilə qabartmağa can atır.

---

[14] Munro, A. “The Moons of Jupiter” [Electronic resource] / www.need-read.com/ebooks/moons of Jupiter.html

[15] Munro, A. Hateship, friendship, courtship, loveship, marriage. // – Toronto: – 2001. – p.153.

“Yupiterin peykləri” kitabı qadınların kişilərdən asılılıq dərəcəsini müəyyənləşdirən və analarının yaşadığı dövrdən fərqli olaraq qadın azadlığına verilən imkanları dəyərləndirmədən özlərini kişilərə möhtac hiss etməyə davam etdiklərini göstərən, bir nəsildən digərinə keçərək dəyişən qadın həyatlarının müxtəlif aspektlərinə nəzər salır[16].

Bu topluya daxil olan “Çaddeleylər və Fleminqlər 1: Qohum” adlı hekayəyə nəzər salaq. Hekayədə hadisələr təhkiyəçinin – baş qəhrəmanın özü tərəfindən nəql olunur. Xalası Ayrisin təhkiyəçinin evinə qonaq gəlmək istəyi bir sıra uşaqlıq xatirələrinə yol açır. Bu hekayədə aşkar psixologizmin qəhrəmanın özünüanalizi, təhlili, daxili monoloq, etiraf, şüur axını, xatirə kimi ifadə vasitələrindən istifadə edən Elis Manro qəhrəmanın mənəvi-psixi yaşantılarını, gizli və aşkar düşüncələrini obrazın öz dili ilə oxucuya çatdırır.

Qəhrəmanımız uşaqlıq xatirələrinə dalıb, anasının, xalaları - Ayris, İzabel, Flora, Unifredin onlarda necə əyləndiklərini, ingilisəsilli olmaları barədəki qızğın mübahisələri, ulu babaları haqqında mülahizələrini xatırlayır. Bu xatirələr dumanı əri Riçardın onu səsləməsi ilə yoxa çıxır. Qəhrəmanımız özü haqqında şərh verir və daxili monoloq mexanizmi işə düşür. Məlum olur ki, qəhrəmanımız Riçard adlı bir şəxslə ailəlidir. Onların iki övladı var və Vankuverdəki gözəl malikanədə məskunlaşmışlar. Uzun illik ayrılıqdan sonra ilk dəfə xalası Ayrisin onlara baş çəkmək istəyi qəhrəmanımızda özünü onun gözündə özünütəsdiqləmiş, öz layiqli yerini cəmiyyətdə almış və hörmət-izzət sahibi olmuş bir qadın obrazı yaratmaq iddiasını doğurdu: *“Mən qonaqlığın yaxşı keçməsini arzulayırdım. Bu mənim öz xeyrimə idi. Mənim niyyətim heç də ürəkaçan deyildi. İstəyirdim ki, xalam Ayrisin heç kəsə utanc hiss etdirməyən qohumum olduğunu göstərim. Riçard, onun pulu və bizim evimiz xalam Ayrisin nəzərində həmişəlik qalmağını istəyirdim ki, məni kasıb qohumları siyahısından çıxartsın”*[17].

[16] Christine Somerville J. Stories and Storytelling in Alice Munro’s fiction / M.A.Thesis / – University of British Columia, 1985. – 180 p.
[17] Munro, A. “The Moons of Jupiter” [Electronic resource] / www.need-read.com/ebooks/moons of Jupiter.html

Qəhrəmanın daxili monoloqu onun yaşadığı gizli istək və arzularına işıq saçır. Onun məqsədi bir vaxtlar tibb bacısı işləmiş xalası Ayrisi Riçarda nümunə göstərmək və kasıb, ucqar kənddən də sosiallaşmış insanların olduğunu sübut etmək və qohumlarının da bu cür alicənab insanlarla zəngin olduğunu göstərərək özünü ərinin gözündə təsdiq etmək və yüksəltmək idi. Digər tərəfdən isə Riçardın bəxş etdiyi varlı həyatı xalasına nümayiş etdirərək öz dəyərini onun gözündə qaldırmaq niyyətində idi.

O, Riçardla evliliyinin ilk günündən təkcə öz qohumları ilə deyil, hətta öz nitqi, davranışı, vərdişləri ilə də gözə görünməyən mübarizəyə qalxmış bir insanla həyatını bağladığını dərk etmişdi. Riçard onun şəhərdən kənarda – kənddə böyüyüb boya başa çatması faktını dost-tanışdan gizlədir və sosial statusca yüksək təbəqənin məclislərində utancverici səslənən ləhcəsindən onu birdəfəlik ayırmaq və özünə, səviyyəsinə layiq etməyə çalışırdı: *"Riçard mənimlə evlənməklə özünü çox xətalı işə salmışdı. Riçard köhnə çamadan təəssüratı yaradan keçmişimdən yaxa qurtarmağımı istəyirdi. Amputasiyanın natamam qalması onun nəzərindən qaçmırdı"*[18].

Keçmişini, qohumlarla əlaqəni, boya başa çatdığı məkanı, büruzə verən ləhcəni lazımsız, zərərli bədən üzvü kimi amputasiya etməyə cəhd edən Riçard onun xatirələrinə, keçmişi bir lent kimi göz önündən keçirdən şüuraltına müdaxilə etmək iqtidarında deyildi.

Qəhrəmanımız xalasını şam yeməyinə gözləyirdi. Şam süfrəsini düzəldərək qəlbində hələ də Riçardla mübahisə edirdi: *"Mən qoyun ayağının buzunu açmağa və limonlu tort bişirməyə başladım. Limonlu tort anamın xalalarımın qonaq gələrkən bişirdiyi şirniyyat idi. O desert cəngəllərini parıldadaraq, süfrə salfetlərini ütüləyərdi. Bizim desert çəngəllərimiz var idi. (Riçardın bilməsini istərdim); bəli, bizim süfrə salfetlərimiz də vardı"*[19].

Limonlu tort qəhrəmanımızda anası ilə bağlı assosiasiyalar oyatdı və bu assosiasiyalar onu qeyri-sivil mühitini – kənddəki həyatını məzəmmət edən Riçarda bu fikrin əksini sübut etmək üçün çarpışmaları ilə nəticələndi. Şam süfrəsini bəzərkən şüur axını onu

---

[18] Munro, A. "The Moons of Jupiter" [Electronic resource] / www.need-read.com/ebooks/moons of Jupiter.html

[19] Yenə orada.

özünütəhlilə, özünüanalizə sürükləyir, qəhrəmanımız özünü tanımağa cəhd edir. *“Əlbəttə ki, bunların – gərəksiz desert cəngəllərinin mənim üçün heç bir mənası yox idi. Məgər mən bu cür əşyalara malik olmağı həyata daha sivil, daha mədəni münasibət bəsləməyin nişanəsi olduğunu düşünən insanlardanam? Xeyr, heç də belə, dəqiq yox: bəzən hə bəzən yox”*[20].

Daima mənəvi basqı altında, sözlərinin və əməllərinin senzuraya uğrama qorxusu ilə yaşayan qəhrəmanımız hekayənin sonunda Riçardın xalasının arxasınca deyinmələrinə, təhqirlərinə tab gətirə bilmədi. Riçardın narazılığı, müştəbehliyi onun əsəblərini tarıma çəkdi və özünü içi tort olan boşqabı ərinin üzünə çırpmaqdan saxlaya bilmədi.

“Nifrət, dostluq, qayğı, eşq, nigah” hekayələr toplusuna daxil olan “Nifrət, dostluq, qayğı, eşq, nigah”, “Ailə mebeli”, “Gicitkən”, “Karkaslı ev”, “Nə yada düşür”, “Ayı dağı aşdı” kimi hekayələrdə istifadə olunan şüur axını, psixoloji analiz, qəhrəmanın etirafı, keçmişə söykənən xatirələr kimi aşkar psixologizm, portret, peyzaj, interyer, jest və mimikanın təsvirini özündə cəm edən gizli psixologizm təhlilinə yönəldilmişdir.

Gizli psixologizm nümunəsini “Gicitkən” hekayəsində nəzərdən keçirdək. Hekayə baş qəhrəmanın təhkiyəsi ilə nəql olunur. Təhkiyəçi 1979-cu ilin yayında öz rəfiqəsi Sannigilə qonaq gəlir və mətbəxdə çörəyə ketçup sürtən bir kişi ilə üzləşir. Məhz fləşbək mexanizmi işə düşür və bu insanla bağlı xatirələr oxucuya çatdırırlar. Uşaqlıq illəri, yaşadıqları ferma, atasının tülkü biznesi, qazmaçının oğlu Maykla uzun gəzintiləri, körpü üstündə palçıq döyüşləri ilə bağlı səhnələr və sonda vidasız ayrılığın verdiyi iztirablı günlərin xatirələri sel olub şüurunun qaranlıq guşəsindən süzüb gəlir. O vaxtlar da Mayk ketçublu çörək yeməyi sevirdi. Budur illər sonra həmin balaca oğlan böyümüş və qarşısında durur. Mətbəxdəki kişi qəhrəmanımızın uşaqlıq dünyasındakı ilk təmiz sevgisinin təcəssümü idi. Bu həmin Mayk idi. Yazıçı bu xatirələrdən sonra oxucunun diqqətini Sanni və təhkiyəçinin bugünkü həyatına yönəldir. Hər ikisi Vankuverdə hamiləlik və körpələrinə baxan dönəmində bir-birlərinə

[20] Munro, A. “The Moons of Jupiter” [Electronic resource] / www.need-read.com/ebooks/moons of Jupiter.html

sirdaş və qulaqyoldaşı olmuşdurlar. Təhkiyəçi birinci ərindən boşanmış və evi tərk etmişdi və Torontoda məskunlaşmışdı. Tənhalığını öz yazıları ilə dəf etdiyi günlərdən birində rəfiqəsi Saninin əri Constonla həmkar olan Mayka rast gəlir. Mayk mühəndis olmuşdu. Irlandiyalı həkimlə evlənmiş, 3 övladı vardı. Yazıçı Maykın fiziki portretini yaradır: *"Getdikcə ağaran, qısa kəsilmiş saçlar, dərində yerləşən açıq rəngli gözlər, nazik ürəkaçan, lakin sərt üzlü"*[21]. Bu portretdən - gizli psixologizmdən yazıçının eyhamını hiss etmək olur. Maykın həyatında onu sərtləşməyə vadar edən məqamları yazıçı hekayənin sonunda açıqlayır.

İllər sonra təsadüf nəticəsində görüşən cütlük qolfa getmək qərarına gəlirlər. Qolf meydançasında birdən qopan güclü külək, yağan leysan onları daldalanaraq kol-kosun – gicitkən kollarının üstündə uzanıb gözləməyə məcbur etdi. Elis Manro bu təbiət hadisəsini təsvir etməklə gizli psixologizm mexanizmini işə salır. Sanki qopan külək qəlbinin dərinliyində Mayka rahatlıq verməyən həqiqəti dilinə gətirmək üçün qopmuşdu. Gicitkən tikanlarının əl-ayaqlarında yaratdığı yaralar isə həyatın onlara yaşatdığı acı anlar kimi dərin və sağalmaz deyildi. *"Sən demədiyim bir məsələ var." Onun səsi məni təəccübləndirdi. "Bizim kiçik oğlumuz keçən yay öldü. Mən maşını arxaya verərkən oğlumu vurmuşdum. Onun adı Breyn idi. Onun 3 yaşı vardı. Mən daha diqqətli olmalı idim"*[22].

Öz günahını bəzən illərini paylaşdığın insana deyil tamam ayrı, yad bir nəfərə etiraf etmək daha asan olur. Səni qınamayacağını, sındırmayacağını yalnız dinləyəcəyini bilən bir insana. Ailədə bu itki yalnız sükutla, "hər kəsin öz dərdini özü çəkməlidir" prinsipi ilə ötüşdürülür. Yağan leysan güclü küləyi sakitləşdirdiyi kimi Maykın etirafı da onun keçirtdiyi iztirab və üzüntünü az da olsa xəfiflədə bildi. *"Mən bunun öhdəsindən gələ bilməyəcəyəm. Mən heç vaxt özümü bağışlamayacağam... Həyat yoldaşım bağışlayır məni lakin o, da bunu unuda bilməyəcək"*[23]. Səhvsiz insan yoxdur. Vicdanlı insan özünü bağışlaya bilməməsi elə onun ən böyük iztirabına, bəzən isə

---

[21] Munro, A. Hateship, friendship, courtship, loveship, marriage. // – Toronto: – 2001. – p.153.
[22] Yenə orada, – p.156.
[23] Yenə orada, – p.156.

sonuna çevrilir. Eynən rus ədəbiyyatının görkəmli yazıçısı Anton Çexovun "Məmurun ölümü"[24] hekayəsində Çeryakovun özünü bağışlamadığı kimi.

**"Elis Manro hekayələrində bədii psixologizm qadın problemi kontekstində"** adlanan **üçüncü fəsil** iki yarımfəsildən ibarətdir. ***"Elis Manro psixologizmində feminizm"*** adlı birinci yarımfəsildə istər Elis Manronun, istərsə də hekayələrinin baş qəhrəmanına çevrilən qadınların feminist düşüncələrinin tədqiqi və təhlilinə həsr edilmişdir. Feminist düşüncə tərzini bütün əsərlərinə şamil edən qələm ustası Elis Manro hekayələrində ailə münasibətləri fonunda qadın etibarı, iztirabı, fədakarlığı, dostluğu, sevgisi, mənəvi psixi yaşantıları, şüuraltı düşüncələri məharətlə qabardılır. Elis Manro hekayələrində əsas qəhrəman və ya təhkiyəçi qadınlardır ("Meşə", "Üz" və "Ayı dağı aşdı" hekayələrindən başqa). Onlar mürəkkəb, ziddiyyətli və emosional xarakterli obrazlardır. Elis Manro hekayələrində bir tərəfdən patriarxal cəmiyyətdə öz qadın statusları uğurunda mübarizəyə qoşulan, kişilərin mədəni dominantlığından qurtulmağa can atan digər tərəfdən isə daxili və xarici idarəolunmaz ictimai qanunların altında əzilən qadınlar qalereyasını təqdim edir. Hər hekayə toplusu birbaşa müəllifin öz həyat axarı ilə səsləşir yəni müəllifin həyatının hər sərlövhəsinə, hər dövrünə dair hekayələri həmin toplularda tapmaq olar. "Şən kölgələrin rəqsi"ndə uşaqlıq, "Qızlar və qadınların həyatları" gənclik, "Sənə nə isə demək istəyirdim" və "Sən özün kimsən axı?" topluları orta yaş, "Yupiterin peykləri" və "Sevgi yolu" isə kamillik dövrünün xatirələrinə söykənir[25].

"Qaçaq" hekayələr toplusuna daxil olan "Qaçaq", "Qismət", "Tezliklə", "Səssizlik", "Ehtiras", "Kələk", "Bacarıqlar" kimi hekayələrdə isə qadın və cəmiyyət problemi təhlilə cəlb edilmişdir.

"Həddən artıq xoşbəxtlik" hekayələr toplusuna daxil olan "Zaman", "Uenlok uçurumu", "Azad radikallar", "Həddən artıq xoşbəxtlik" hekayələrdə qəddarlıq, vəfasızlıq, zorakılıq, riyakarlıq, oğruluq, sui-qəsd, qətl kimi sosial-psixoloji məsələlər qabardılır. Bu

---

[24] https://www.litres.ru/anton-chehov/smert-chinovnika/chitat-onlayn/

[25] Celeste Fernandes. The fiction of Alice Munro: A Study. / Thesis for Doctor of Philosophy, Goa University, – 2004. – 410 p.

hekayələrdə xüsusən zəif cinsin nümayəndələrinə yönələn bu neqativ halların qadın psixi-mənəvi dünyasına təsiri psixoloqcasına qələmə alınmışdır.

Elis Manronun qadın obrazları cəmiyyətin onlara diktə etdiyi cığırdan çıxmaq kimi bir lüksə sahib olmadıqlarını uzun mübarizədən sonra anlayırlar. Tədqiqatçı Kristina Nikolas "Elis Manro nəsrində gender təcəssümləri"[26] adlı məqaləsində bildirir ki, Manronun qadın obrazları öz daxili arzuları və xarici idarəolunmaz ictimai qanunların altında əzilir. Emosional həyatları sirli bir aləmdir və oxucu nəyin nə zaman baş verəcəyi qarşısında acizdir.

***"Elis Manro yaradıcılığında sosial-psixoloji hekayələr (Afaq Məsudun hekayələrilə müqayisədə)"*** adlanan *ikinci yarımfəsildə* hər iki qadın yazıçının hekayələri arasında paralellər aparılmışdır.

Afaq Məsud da Elis Manro kimi tənhalığa düçar insanın psixi-mənəvi iztirablarını və ekzistensial yadlaşmadan çəkdiyi əzabları aşkar və gizli psixologizm vasitəsilə təsvir edən yazıçıdır.

Nərgiz Cabbarlının "Afaq Məsudun yaradıcılığının tənqidi dərkində Nizami Cəfərovun monoqrafiyasının yeri" adlı məqaləsində Afaq Məsudun Azərbaycan qadın yazıçılarından fərqini bu cür izah edir: *"Afaqa qədər ədəbiyyatımızın qadın yazarı da, qadın xarakteri də var idi, amma o, daha çox "milli mentalitet"ə uyğun, çərçivəli, sərhədli, öz mənəvi dünyasını və düşüncələrini açarkən müəyyən bir sərhəd xəttinə qədər gedən, lakin onu adlamayan, "nəyi demək, nəyi yazmaq olar, nəyi yox" sualı qarşısında dirənib qalan, öz daxilində belə bu cür sərhədləri aşmağa çətinlik çəkən və əksərən bacarmayan qadınlar idi"*[27].

Həm Afaq Məsud həm də Elis Manro hekayələrində istər üslubi baxımından, istərsə də yaşantılar baxımından şüur axını ilə reallaşan təhkiyədə insanın, xüsusilə də cəmiyyətə, insanlara və ən əsası isə özünə yad olan insanın daxili dünyasının dərinliklərinə enmə, bu dərinlikləri bütün çılpaqlığı ilə oxucusuna təqdim etmə xüsusiyyəti dominantlıq təşkil edir.

---

[26] http://www.inter-disciplinary.net/wp-concontent/uploads/2011/08/nicolaescugpaper.pdf
[27] https://edebiyyatqazeti.az/news/edebi-tenqid/220-ani-kesf-etmek-cehdi

Afaq Məsudun eləcə də E. Manronun hekayələrində tənhalıq, çarəsizlik, özgələşmə problemi qabardılır. Tək-tənha qalmış qoca ər-arvadın ömrünün son saatlarından bəhs edən “Gecə” hekayəsi, Afaq Məsud ədəbi irsinin zirvəsi hesab etmək olar. “Gecə” hekayəsinin qəhrəmanlar – Talıb kişi və qarısı faktiki olaraq, bəşəri tənhalıqla üz-üzə qalıblar və bu tənhalığın girdabında çapalayırlar. Elə bil onları udmaqla hədələyən zamanı sezmirlər. “Qocalar çarpışır, bir-birini ruhlandırmağa çalışaraq, artıq öləzimiş sevginin işartısında isinirlər. Dünyada hər şey əbəsdir. Əbəsliyin özü belə əbəsdir”[28].

Afaq Məsud hekayənin əvvəlində sərt qışın təsviri ilə sanki heç vaxt qayıtmayacaq gəncliyi, sonu olmayacaq qocalığa işarə edirdi. *“Elə bil çovğunun sonu olmayacaqdı. Bir həftəydi, ya on gün idi, ac canavar kimi ulamaqdan yorulmurdu”* [29]. Talıb kişi çovğunun səsindən qorxan qarısına təsəlli verir. Əslində çovğunun səsi belə ölüm saatının tıqqıltısına bənzəyir və qarının qorxma səbəbi də məhz ölüm saatının yaxınlaşması idi. Hər ikisi qocalığın gətirdiyi ümidsizlik və çarəsizliyin girdabında boğulurdu. Yazıçı qəhrəmanlarının bir-birlərinə baxarkən anladıqları acı həqiqəti – həyatın faniliyini fləşbək vasitəsilə təsvir edir. *“Qarının ağzının bir tərəfi əyilmişdi...Qarısının ağzına baxıb kövrəldi, gözləri doldu, yadına bu bəstəboy qadının cavanlığı, ağappaq şümal dərisi, cazibəli gözləri düşdü... Onların heç birindən əlamət yox idi. Hər şey qurtarırdı, bitirdi, sönürdü...”*[30]

E. Manronun “Yellənən körpü” hekayəsində də eyni ilə həyatın sərt rüzgarından sovrulan iki insan, həyatlarının payızını yola salıb, qışını qarşılayan Cinni və Nil ilə tanış oluruq.

“Nifrət, dostluq, qayğı, eşq, nigah” (“Hateship, Friendship, Courtship, Loveship, Marriage”) adlı hekayələr toplusuna daxil olan “Yellənən körpü” hekayəsində E.Manro yenə ölüm qorxusu mövzusuna toxunur. Yazıçı xərçəng xəstəliyindən əziyyət çəkən, mənəvi-psixi iztirablara düçar olan bir qadının – 42 yaşlı Cinninin həyatından bir epizodu qələmə almışdır.

---

[28] https://www.afaqmesud.az/az/posts/id:671
[29] https://www.afaqmesud.az/az/posts/id:145
[30] https://www.afaqmesud.az/az/posts/id:145

E.Manro 90-cı illərdə özü də xərçəng mərəzinin cənginə keçmişdi. 1991-ci ildən kimyəvi müalicə alan E.Manro bu xəstəliyə qalib gələ bilmişdi. Odur ki, öz hislərini, düşüncələrini, həyəcanını əsərin baş qəhrəmanına transformasiya etməklə XX əsrin ən fəsadlı xəstəliyin öz kölələrinə yaşatdıqlarını böyük ustalıqla qələmə ala bilmişdi.

Cinni Nil ilə artıq 21 ildir ki evlidir. Bu cütlük arasında mənəvi uçurum illər öncə yaranmışdır. Lakin səbr etməyə, bir-birlərinin mənfiliklərini ört-basdır etməyə alışmış, vərdiş etmişlər. İndi isə bu xəstəlik onun qəfəsdən qurtulmağa yeganə yol buraxırdı – bu isə ölüm yəni azadlıq idi. Hər kəs kimi Cinni də ölüm haqqında fikirləri özünə yaxın qoymazdı. Öz ölümünü təsəvvür etməkdənsə başqalarının ölüm səhnəsini canlandırırdı. Hətta Cinnidən 16 yaş böyükləri Nilin bir zamanlar öləcəyi səhnəsini də gözü önündə canlandırıb, özünü həmin hadisəyə hazırlayırdı: *"Bir dəfə yataqda yatmazdan öncə onun əlini - isti və canlı əlini tutmuşdu. Düşünürdü ki, o öləndə ən azı bir dəfə bu əli tutacaq yaxud da toxunacaq. Və onun bu həqiqətə inanmağı gəlməyəcək. Onun ölü və gücsüz olmaq faktını qəbul edə bilməyəcək. Öncədən özünü bu hadisəyə neçə dəfələrlə hazırladığına baxmayaraq. O yenə də inanmayacaq"*[31]. İndi isə vəziyyət başqa idi. Yaşamının payızı bitməmiş, qışı başının üstünü kəsmiş onu ölüm ilə hədə-qorxu edirdi. Xərçəngdən xilas olmaq qeyri-müəyyən idi. Həyatını müəyyən rejim, planlar üzrə qurmağa alışan Cinnini məhz bu qeyri-müəyyənlik öldürürdü. Ankoloq həkimin dediyi sözlər sanki şüurunun dərinliklərindən axıb gəlir. "Xərçənglə mübarizə uzun müddətli bəzən isə ömrünün sonunadək davam etdirilməlidir" sözləri Cinninin qulaqlarında cingildəyir. Həkimin təkidi ilə boşaldılan – qəzet, jurnal, kompüter və hətta televizoru olmayan otaq, baxıcılıq etmək üçün tutduğu 18 yaşlı Elen və qeyri-müəyyən gələcək Cinnini gözləyən həyat idi.

"Yellənən körpü" hekayəsində eyni ilə Afaq Məsudun "Gecə" hekayəsində olduğu kimi müəyyən süjet xətti yoxdur. Əsərdəki hadisələr şüur axının təqdim etdiyi xatirə, fləşbək və epizodlarla bağlıdır. Nil azyaşlı cinayətkarların təlim koloniyasında müəllim

---

[31] Munro, A. Hateship, friendship, courtship, loveship, marriage. // – Toronto: – 2001. – p.52.

işləyir. Oranın mətbəxində işləyən Eleni öz arvadına – Cinniyə baxıcı kimi işə götürür. Elen 18 yaşında gənc qızdır. Valideynləri psixi xəstəxanada müalicə aldıqlarından Elen və bacısı müxtəlif ailələrə verilmişdir. Elen Met və Cuni adlı insanlarla və ögey qardaşı Rikki ilə bir evdə qalırdı. Məhz Rikki Cinnini yellənən körpüyə gətirir. Bu körpünün təsviri Cinninin həyatı ilə paralelləşdirilir. Onun da həyatı bu körpü kimi asılı vəziyyətdədir, axan çay isə ilk baxışdan sakit görünsə də hərəkətdədir. Sanki Cinninin həyatı kimi öz axarı ilə davam edir. Lakin daxili təbəddülatlardan kimsənin xəbəri yoxdur. *"Körpünün altında axan su belə sakit görsənsə də həqiqətdə belə aram deyil, çünki əgər sən ulduzların su üzərindəki əksindən birinə zillənsən, onun yanıb söndüyünü, formasını dəyişdiyini və gözdən itdiyini görərsən"*[32].

Afaq Məsud nəsrində onun qadın qəhrəmanları daha çox məhrumiyyət və üzüntülərlə təsvir edilir. Məhrumiyyətləri qarşılıqsız sevgidəndirsə, üzüntüləri də bu sevgiyə sərf etdikləri zaman itkisindəndir, o zaman ki artıq geri qayıtmayacaq, qaytarılmayacaq. Zamanında başına pərvanə olduqlarının illər keçdikcə şamına yanıb, kül olduğunu dərk etmək Afaq Məsudun qadın qəhrəmanlarını daha çox mənəvi iztiraba sürükləyir.

Afaq Məsudun "Cəza"[33] povesti ilə Elis Manronun "Utrext sülhü"[34]ndə məhz tənhalığa sürüklənən, mənəvi iztirabın cəngində əzilən, bir-birinə özgələşən "doğma" insanlarla rastlaşırıqsa, Afaq Məsudun "Həsən əmi"[35] və Elis Manronun "Üz"[36] hekayələrində isə bu tənhalıq girdabının yaradıcısının elə məhz insan olduğuna, "insana özündən yaxın düşmən yoxdur" fikrinə təəssüf ki, isbat tapırıq.

[32] Munro, A. Hateship, friendship, courtship, loveship, marriage. // – Toronto: – 2001. – p.55.

[33] https://525.az/news/193985-bedii-dusunce-imkanlarinin-ozunemexsuslugu-bedirxan-ehmedli-afaq-mesud-haqqinda-yazir

[34] Munro, A. Dance of Happy Shades / A.Munro. – London: Vintage Books, – 2000. – 240 p.

[35] https://www.afaqmesud.az/az/posts/id:333

[36] Munro, A. Too much of happiness / Alice Munro. – Toronto: McClelland& Stewart, – 2009. – 250 p.

Dissertasiya işinin **Nəticə** hissəsində aparılan araşdırmanın əsas elmi müddəa və qənaətlərini aşağıdakı kimi təqdim edirik:

1. Bədii psixologizmin yaranmasına təkan verici rolu həyatın özü şərait yaratmış, bundan çıxış edən sənətkarlar da yaradıcı şəkildə münasibət bildirib, həyatı bədii söz sənətinin obrazına çevirmişlər. Cəmiyyətdə mədəniyyətin yüksək inkişafı dövründə insana obyekt və yaxud fərd kimi deyil, şəxsiyyət kimi dəyər verilməsi, insanın sosial statusunun, vəzifə və cəmiyyətdəki mövqeyinə maraq və insanın daxili-mənəvi aləminin bədii ifadələrlə təsviri bədii psixologizmin yaranıb inkişaf etməsinə zəmin yaratmışdır.

2. Bədii psixologizmin təşəkkülü ədəbiyyatın inkişaf qanunauyğunluqları ilə bir sırada adlamış, antik dövrdən yeni dövrədək inkişaf edərək müasir ədəbi mərhələyə gəlib çatmışdır. Dövrünün abı-havasına uyğun yazılan əsərlərdə psixologizmin təzahür formaları yaranmış, onların ədəbiyyatda inikası xüsusiyyətləri formalaşmışdır. Belə əsərlərdə təsvir obyekti olan insan və onun taleyi əsər boyu izlənilir, hiss və həyəcanları, düşüncə və davranışları, insan və cəmiyyət münasibətləri fonunda bədii həyat qazanır. Bu baxımdan psixologizmi bədii əsər üçün dəyər vahidi, yazıçı üçün ədəbi yaradıcılığının məziyyəti hesab etmək olar.

3. Bədii psixologizmin nəzəri problem kimi izlənilməsi psixologizmin ədəbiyyatşünaslıqda təşəkkül tapdığını söyləməyə əsas verir. Onun məhz elmi-nəzəri təqdimatının mümkünlüyü Elis Manro yaradıcılığında psixologizmin izlənilməsilə nəticələndi.

4. Aşkar və gizli psixologizm bədii əsərdə obrazın, hadisə və əhvalatların mahiyyətinin açılması yolu ilə baş verir və onun ən aparıcı formaları olan monoloq, dialoq, şüur axını vasitəsilə həyata keçirilir. Monoloq və dialoq obrazın fərdi və sosial xarakterini, yazıçının mövqeyini əks etdirməklə yanaşı, əsərin ideyasının daha aydın təzahür vasitəsidir.

5. XIX əsrdən inkişaf edən ingilisdilli Kanada ədəbiyyatı dünyanı bürüyən mənəvi-psixoloji böhrandan kənarda qalmamış, bu hadisələri öz bədii əsərlərində təsvir etmişdir. Elis Manro nəsrin bütün sahələrində olduğu kimi kiçik nəsr nümunələrində də insanın emosional dünyasını, onun "mən"ini oxucuya çatdırmağın mümkünlüyünü ortaya qoya bilmişdir.

6. E.Manronun təbiət hadisələrini, interyeri, obrazların danışıq tərzi və portretini rəssamcasına, psixologizmdəki üslubi priyomlarla təsvir edə bilməsi oxucunun baş verənləri gözü önündə canlandırmasına gətirib çıxartdı. Qəhrəmanın mənəvi-ruhi gizli və aşkar psixologizmin üslubi priyomlar ilə canlandıra bilməsi Elis Manronu bir sənətkar kimi "Kanadanın Çexovu" adlanmasına yüksəltdi.

7. Qəhrəmanın psixoloji özünütəhlil, daxili monoloq, dialoq, məktub, etiraf, gündəlik, yuxu, şüur axını kimi aşkar psixologizm vasitəsi ilə obrazların daxili-mənəvi yaşantılarını qabardan Elis Manro hekayələri bir qayda olaraq qadın həyatından bəhs edir. Onun yaradıcılığında qadının cəmiyyətdə və ailədə tutduğu mövqe mənəvi-psixoloji müstəvidə təqdim olunur. Bu keyfiyyət Elis Manronu ingilisdilli Kanada ədəbiyyatının ən ünlü yazıçısına çevirə bildi.

8. "Şən kölgələrin rəqsi" və "Sən özün kimsən axı?" hekayələr toplularında psixologizmin problem dairəsi ilə öyrənilməsi onu deməyə əsas verir ki, müəllif insan və cəmiyyət qarşıdurmasından yaranan insan problemini ortaya qoymaqla psixoloji nəsrin sərhədlərini genişləndirməyə müvəffəq olmuşdur.

9. "Yupiterin peykləri" və "Nifrət, dostluq, qayğı, eşq, nigah" hekayələr toplularında psixologizmin xüsusiyyətlərinin təzahür spesifikliyinin təhlili Elis Monronu insanın daxili dünyasının, onun ruhi-mənəvi aləminin açılmasının mümkün yollarını göstərməyə nail olmuşdur. Psixologizm bu halda müəllif reallığının açıqlamasına xidmət edir.

10. "Qacaq" və "Həddən artıq xoşbəxtlik" hekayələr toplusunda qadın və cəmiyyət problemi insanın ekzistensial varlıq kimi mövcudluğu, onun cəmiyyətdə yeri və rolu, özünüdərk və özünüanlamaq cəhdi ilə bağlıdır. İnsanın mənəvi, ruhi aləminin sərraf "bilicisi" olan Elis Monro bu toplusunda da psixologizmin üslubi priyomlarından bəhrələnməsi sayəsində ortaya qoyduğu novatorluğu ilə bərabər, onun təkrarsız üslubunun ingilisdilli Kanada kiçik nəsrini keyfiyyətcə yeni mərhələyə keçidini təmin etmişdir.

11. İstər Elis Manro, istərsə də Afaq Məsudun əsərlərinin qəhrəmanlarının çoxu ehtiyac içində çabalayır, yaxşı həyat yaşamır, soyuq münasibətdən, iztirabdan əziyyət çəkir, sevgisizlik, qayğısızlıq

girdabında boğulur. Lakin onların əksəriyyəti çırpınır, mövcud vəziyyətlə barışmaq istəmir və ən əsası azadlığa can atırlar. Cəmiyyətin doqmaları altında əzilən lakin mübarizə yolunu seçən qadınlar hər iki yazıçının əsərlərində ön planda verilir. Hər iki müəllif aşkar və gizli psixologizmin dialoq, monoloq, şüur axını, portret, interyer, fləşbək kimi üslubi priyomların vasitəsilə hadisələrin alt qatını, obrazların daxili-psixi aləmini, tərəddüd və təbəddülatlarını təsvir etməyə nail olmuşdur.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**


1. Nobelçilər sırasına qatılan ilk Kanadalı yazıçı // – Bakı: ADU-nun "Elmi xəbərlər"i, – 2015. №4, – s.227-231.
2. Elis Manro yaradıcılığı ədəbi tənqiddə // – Bakı: ADU-nun "Elmi xəbərlər"i, – 2015. №5, – s.142-146.
3. Bədii psixologizmin estetik qaynaqları // "Xarici dillərin tədrisinin aktual problemləri" respublika elmi-praktiki konfransı. – Bakı: ADU, – 5-6 may – 2016, – s.449-452.
4. Elis Manronun hekayələrində bədii psixologizmin ifadə üsulları // – Bakı: BDU, Dil və ədəbiyyat, – 2016. №4, – s. 276-280.
5. Bədii psixologizmin ifadə vasitələri (Elis Manronun hekayələri əsasında) // – Bakı: AMEA, Ədəbi Əlaqələr, – 2017. №11, – s.78-84.
6. E.Manro hekayələrinin psixoanalitik tənqidin prinsipləri əsasında təhlili // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2017. №1, – s.178-183.
7. The obvious and secret psychologisms in Alice Munro's prose // Almata: Al Farabi Kazakh National University, Bulletin, Series "Philological sciences", – 2017. №4(165), – p.106-112.
8. Elis Manronun hekayələrində psixologizmlər (üslubi priyomların işlənmə kontekstində) // "Gənc tədqiqatçıların IV beynəlxalq-elmi konfransı", – Bakı: BMU, – 5-6 may – 2017, – s.828-829.
9. Elis Manro psixologizmində qadın problemi // – Bakı: ADU-nun "Elmi xəbərlər"i, – 2018. №3-4, – s.69-75.

10. Archetypes in Alice Munro's short story "The Office" // 9th International conference "Science and society-Methods and problems of practical application". – Canada: Vancouver, – 15 February – 2020, – p.58-61.

Dissertasiyanın müdafiəsi 08 iyun 2023-cü il tarixində saat $10^{00}$ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.05.2023

Kağızın formatı: 60x84 1/16

Həcm: 45 558 işarə

Tiraj: 100